# “Turizm destinasiyalarının idarəedilməsi” kitabı təqdim olunub



***Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin tabeliyində olan Şəki Destinasiya Menecmenti Təşkilatının dəstəyi və təşkilatçılığı ilə hazırlanmış “Turizm destinasiyalarının idarəedilməsi” kitabının təqdimatı keçirilib. Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) təşkil edilən təqdimatda kitabın ərsəyə gəlməsində görülən işlərdən danışılıb, vəsaitin 7 müəllif və 3 redaktorun iştirakı ilə hazırlandığı bildirilib.***

Dövlət Turizm Agentliyinin sədrinin müşaviri Kənan Quluzadə yeni kitabın dərs vəsaiti olaraq tələbələrin turizm destinasiyaları üzrə əldə edəcəyi nəzəri biliklərə dəstək olacağını deyib. O, hazırda turizm destinasiyalarının inkişafı istiqamətində agentliyin tabeliyində 4 Destinasiya Menecmenti Təşkilatının fəaliyyət göstərdiyini və gələcəkdə bu növ təşkilatların sayının artırılmasının nəzərdə tutulduğunu qeyd edib.

ATMU-nun tədris işləri üzrə prorektoru Zaur Bağırov çıxış edərək, kitabın turizm sahəsində təhsil alan tələbələr və akademik heyət üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. O, bundan əvvəl turizm destinasiyaları mövzusu üzrə Azərbaycan dilində bilik mənbələrinin, dərs vəsaitlərinin azlığının müəllimlərə, eləcə də tələbələrə mövzunu mənimsəməkdə çətinliklər yaratdığını qeyd edərək xüsusi məlumat əhəmiyyətli kitabı yüksək qiymətləndirdiyini və vəsaitin turizm təhsilinə öz töhfələrini verəcəyini diqqətə çatdırıb.

Destinasiya idarəetməsi mövzusu ilə əlaqəli Azərbaycan dilində ilk olan kitab 223 səhifəlik dərs vəsaitidir. “Destinasiyaların yaranması və inkişafının nəzəri əsasları”, “Turizm destinasiyalarının planlaşdırılması və idarə edilməsi”, “Turizm destinasiyaların cəlbediciliyi və dayanıqlılığı”, “Dəyişən dünya üçün destinasiya marketinqi”, “Milli turizm təşkilatları: Onların turizmin inkişafında yeri və rolu” adlı 5 fəsildən ibarət kitabda 17 bölmə var.

Çap edilmiş dərs vəsaitləri tələbələrə çatdırılması üçün ölkənin turizm təhsili verən universitetlərinin kitabxanalarına paylanılacaq. Qeyd edək ki, kitabı elektron versiyada əldə etmək mümkündür. Bunun üçün bu keçiddən istifadə edilməlidir: https://bit.ly/34vgrPN

***Z.BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .-2022.- 8 fevral.- S.7.